# NAXÇIVAN MUXTAR RESPUBLİKASI: DÖVLƏTİN İQTİSADİ SİYASƏTİNDƏ MƏŞĞULLUQ MƏSƏLƏSİ

## VƏ YAXUD MƏŞĞULLUQDAN MƏMNUNLUĞA

**Ölkəmizdə məşğulluq məsələsi, insan amili, əhali problemlərinin öyrənilməsi, onun gündəlik yaşam tərzinin səmərəliliyinin təmin olunması, bu məqsədlərə xidmət edəcək amillərin və tədbirlərin həyata keçirilməsi ötən əsrin 90-cı illərinin əvvəllərində öz iqtisadi və hüquqi əsaslarını ümummilli liderimiz böyük Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan Muxtar Respublikası dövründən götürmüş oldu.**



Müasir dövrün və dünyanın çağırışları əsasında, tələbləri çərçivəsində istiqamət götürən bu tədbirlər həm yeni bazar iqtisadi münasibətlərinə xas olmaqla başladıldı, həm də iqtisadi siyasətin səmərəlilik mexanizmləri ilə müəyyən olunmasına münbit şərait yaratmış oldu. Təbii ki, bununla da səmərəli fəaliyyətin və əməyin təminatı üçün əlverişli şərait yaranmış oldu.

Müasir sosial siyasətin dayanıqlığı, geniş əhatəliliyi və uzunmüddətliliyi yaşadığımız əsrin əvvəllərində böyük siyasətin nəhəng strateji hədəflərinə çevrildi. Belə ki, 2 iyul 2001-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasında Məşğulluq Qanunu qəbul edildi. Orada məşğul şəxslər, məşğulluq sahəsində dövlət siyasəti, məşğulluq sahəsində vətəndaşların hüquqları, məşğulluq sahəsində həmkarlar ittifaqlarının iştirakı, məşğulluğun təmin edilməsində işəgötürənlərin iştirakı və s. kimi məsələlər öz hüquqi və iqtisadi əksini tapmışdır. Bunun ardınca, 26 oktyabr 2005-ci il tarixində ölkə başçısı tərəfindən imzalanan Sərəncamla "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının (2006-2015-ci illər)", eləcə də 2007-ci il tarixində imzaladığı Sərəncamla isə Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramının (2007-2010-cu illər) müstəsna əhəmiyyətini göstərmək lazımdır.

Xüsusilə qeyd edək ki, Naxçıvan Muxtar Respublikası ölkəmizdə qəbul edilən hüquqi aktların, həyata keçirilən tədbirlərin, əldə olunan uğurlu nəticələrin həm başlanğıcına, həm addımbaaddım izləyicisinə və həm də sosial-iqtisadi dayaqlarına çevrilmişdir. Ümummilli liderimiz böyük Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasından başlatdığı müasir müstəqillik şəraitindəki iqtisadi inkişaf strategiyası hazırda Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən inamla, daha da təkmil şəkildə və müasir dövrümüzlə səsləşməklə davam etdirilməkdədir. Belə ki, Muxtar Respublikamızda əhalinin səmərəli məşğulluq səviyyəsinin yüksəldilməsi və potensialının artırılması məsələlərinə münbit şərait yaratmış və yaradacaq hüquqi mexanizmlər 1992-ci il aprel ayının 6-da qəbul edilmiş iki mühüm sənədin- "Naxçıvan MR-də zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqında" və "Rentabelli işləməyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə" qərarın qəbul edilməsi və müvafiq təkliflərin verilməsi ilə başlandı və sonralar:

*- 28 yanvar 2005-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri tərəfindən "Naxçıvan Muxtar Respublikasında aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" imzalanmış Sərəncamla;*

*- 11 aprel 2005-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri tərəfindən təsdiq olunmuş və 2005-2010-cu illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı" ilə;*

*- 30 may 2007-ci il tarixində Naxçıvan MR Ali Məclisinin Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" ilə;*

*- 17 sentyabr 2008-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədrinin imzaladığı Sərəncamla "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" ilə;*

*- 14 fevral 2012-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri tərəfindən imzalanan Sərəncamla "2012-2015-ci illərdə Naxçıvan MR-də meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" ilə;*

*- 18 dekabr 2013-cü ildə Naxçıvan MR Ali Məclisinin Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" ilə;*

*- 31 yanvar 2014-cü il tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri tərəfindən imzalanan Sərəncamla təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqramı" ilə;*

*- 1 sentyabr 2014-cü il tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədrinin Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və s. ilə davam etməkdədir.*

Bütün bunlar təbii ki, muxtar respublikada səmərəli məşğulluq mühitinin formalaşdırılmasına birbaşa və dolayısı ilə təkan ola bilmiş və dayanıqlı sosial siyasətin hüquqi təminatını yaratmışdır. Fikrimizi əsaslandırmaq üçün həmin hüquqi sənədlərdə məşğulluq amilinə xidmət edən məqamlara nəzər salaq:

30 may 2007-ci il tarixində Naxçıvan MR Ali Məclisinin Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Startegiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı"nın (2007-2010-cu illər) vəzifələri:

*- iqtisadi inkişaf və səmərəli məşğulluğun təmin edilməsinə istiqamətləndirilmiş makroiqtisadi siyasətin həyata keçirilməsi;*

*- səmərəli məşğulluğun və əmək məhsuldarlığının artımına nail olmaq üçün müvafiq tədbirlərin həyata keçirilməsi;*

*- sahibkarlığın inkişafına mane olan problemləri aradan qaldırmaq;*

*- xarici iqtisadi fəaliyyətiştirakçılarına sağlam rəqabət şəraiti yaratmaq sahəsində müvafiq tədbirlərin həyata keçirilməsinin davam etdirilməsi;*

*- yerli sənaye məhsullarının dünya bazarında rəqabət qabiliyyətini yüksəltmək sahəsində tədbirlərin həyata keçirilməsi;*

*- muxtar respublikada sığorta sisteminin inkişaf etdirilməsi;*

*- sığorta bazarında investisiya siyasətinin formalaşdırılması;*

*- kiçik və orta sahibkarlıq subyektlərində yeni texnologiyaların tətbiqinin stimullaşdırılması və yerli xammaldan istehsal olunan məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi və s.-dən ibarətdir.*

14 fevral 2012-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri tərəfindən imzalanan Sərəncamla "2012-2015-ci illərdə Naxçıvan MR-də meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın da icrası aşağıdakı təminatlara səmərəlilik gətirəcəkdir:

*- meyvə və tərəvəzçiliyin inkişafı yolu ilə kənd əhalisinin məşğulluğunun artırılması;*

*- onların maddi-rifah halının yaxşılaşdırılması;*

*- mövcud torpaq sahələrindən daha səmərəli istifadə olunması sahəsinə əlavə imkanlar açılması və s.*

31 yanvar 2014-cü il tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri tərəfindən imzalanan Sərəncamla təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqramı" şəhərimizin müasir standartlara uyğunlaşdırılmasında və səsləşməsində ən zəruri mexanizm olmuş və əsas məqsəd kimi:

*- yeni iş yerlərinin və müəssisələrin yaradılması;*

*- kommunal xidmət və sosial infrastruktur təminatının həcmi və keyfiyyətinin artırılması;*

*- məşğulluq səviyyəsinin yüksəldilməsi strateji hədəflərimiz olaraq qəbul edilmişdir.*

1 sentyabr 2014-cü il tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədrinin Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda muxtar respublikada məşğulluq səviyyəsinin daha da artırılması və yeni iş yerlərinin açılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

*- Sahibkarlığın inkişaf etdirilməsinə dövlət maliyyə dəstəyinin davam etdirilməsi;*

*- qeyri-məşğul əhalinin peşə hazırlığının yüksəldilməsi;*

*- müstəqil məşğulluğun inkişafını təmin edən tədbirlərin həyata keçirilməsi;*

*- əmək yarmarkalarının keçirilməsi sahəsində səmərəliliyin artırılması;*

*- idarə, müəssisə və təşkilatların işçilərə olan tələbatının müntəzəm öyrənilməsi və boş iş yerlərinə işaxtaran vətəndaşların göndərilməsinin təmin edilməsi;*

*- məşğulluq xidmət orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi;*

*- kənd yerlərində sosial və kommunal infrastrukturun daha da inkişaf etdirilməsi yolu ilə əhalinin məskunlaşma səviyyəsinin yüksəldilməsi.*

Sistemli yanaşmaya, təcrübəli idarəetməyə, böyük qətiyyətə söykənən bu tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasında 1996-cı ildən bu günə kimi 85861 yeni iş yeri açılmışdır ki, bunun da 59090-ı və ya 68,8 faizi daimi iş yerləridir. Qeyd edək ki, təkcə 2015-ci ildə yeni yaradılan 2908 iş yerindən 2837-si və ya 98 faizi daimidir.

Beləliklə, Naxçıvan Muxtar Respublikası ölkəmizin sosial siyasətinə son iyirmi ildə çox böyük təkan oldu. İqtisadi islahatların beşiyi, siyasi sabitliyin qarantisi, müasir iqtisadi şəraitin bünövrəsi, etibarlı qonşuluğun və dostluğun əbədi təminatçısı və qoruyucusu, siyasi sadiqliyin ən gerçək mahiyyəti və Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası hər birimizin qürur mənbəyimizdir.

**CAVADXAN QASIMOV,**
AMEA Naxçıvan Bölməsinin
Təbii Ehtiyatlar İnstitutunun
İqtisadiyyat şöbəsinin müdiri,
İqtisad üzrə fəlsəfə doktoru, dosent